# Adil CƏMİL-70



Hörmətli Adil müəllim!

Bu il oktyabrın 8-də sizin 70 yaşınız tamam olur.

Siz şair, ədəbiyyatşünas, tərcüməçi, publisist kimi ömrünüzün 50 ilini mənəvi mədəniyyətimizin inkişafına həsr etmisiniz. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin, Respublika Kinematoqrafçılar İttifaqının üzvü, Əməkdar jurnalistsiniz.

8 oktyabr 1954-cü ildə Kəlbəcər rayonunun Günəşli kəndində müəllim ailəsində anadan olmusunuz. İbtidai təhsilinizi kənd məktəbində, tam orta təhsilinizi Mingəçevir şəhər 9 saylı orta məktəbində almısınız. 1977-ci ildə BDU-nun jurnalistika fakültəsini bitirərək təyinatla "Yazıçı" nəşriyyatına göndərilmisiniz. 1978-1990-cı illər arasında həmin nəşriyyatda korrektor, redaktor və böyük redaktor vəzifələrində çalışmış, onlarla kitabın tərtibçisi, yüzlərlə kitabın redaktoru olmusunuz. 1990-cı ildə "Həqiqət" qəzetinin baş redaktoru, 1992-ci ildə "Bakı", "Baku" qəzetlərində mədəniyyət şöbəsinin müdiri, sonralar "Binəqədi" rayon qəzetinin redaktoru, "Maarifçi" qəzetinin baş redaktor müavini və s. vəzifələrdə çalışmısınız. 2002-ci ildən 2014-cü ilə qədər "Ədəbiyyat qəzeti" redaksiyasında poeziya, nəsr şöbəsinin müdiri olmuş, 2014-cü ildən bu vaxta kimi həmin qəzetin baş redaktor müavinisiz.

Hələ orta məktəb illərindən bədii yaradıcılığa başlamısınız. İlk mətbu şeiriniz "Bahar" 1970-ci ildə "Mingəçevir işıqları" qəzetində dərc olunmuşdur. 1980-ci ildə "İşıqlar, pervanələr" adlı ilk şeirlər kitabınız çapdan çıxmışdır. Şeirləriniz Rusiya, Türkiyə, İran və Orta Asiyada dərc olunub, bəzilərinə musiqi yazılıb. Otuzdan artıq kitabın - "Gündoğandan günbatana", "Sözümün canı var", "Aylı gecə nağılı", "Ürəyimdə bir haray var", "Tanrı mənə yar olanda", "Yurd yerim - dərd yerim", "Anama layla"nın, iki cilddə seçilmiş əsərlərin və s. müəllifisiniz.

Siz həmçinin, interpretasiya yolu ilə özünüzün "Manas" dastan-poemanızı yaratmısınız.

Sizin poetik yaradıcılığınız Vaqif Yusiflinin "Adil Cəmilin sənət yolu", Allahverdi Eminovun "Sözün Adil Cəmili", Vaqif İsaqoğlunun "Adil Cəmilin poeziyası" monoqrafiyalarında, "Adil Cəmil mülahizələr müstəvisində" məqalələr toplusunda ətraflı təhlilə cəlb olunmuşdur.

Siz bədii tərcümə ilə də məşğul olursunuz.

Rus, belorus, özbək, qırğız, latın Amerikası poeziyasından tərcümələriniz mətbuatda, tərcümə toplularında və "Könüldən könülə" adlı kitabınızda çap olunmuşdur. Həmçinin, iyirmidən artıq bədii filmi dilimizə çevirmisiniz.

1987-ci ildən bu vaxtı kimi ümumtürk folklorunun möhtəşəm abidəsi, qırğız eposu "Manas"ın tərcüməsi və tədqiqi ilə məşğul olursunuz. "Manas eposu və türk dastançılıq ənənəsi" monoqrafiyanız Azərbaycan, qırğız, rus dillərində Bakıda və Bişkekdə nəşr olunmuşdur.

1995-ci ildə Ulu öndər Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan Nümayəndə Heyətinin tərkibində Qırğızıstanda düzənlənən "Manas - 1000" Beynəlxalq yubiley tədbirinin iştirakçısı olmusunuz. Müxtəlif ölkələrdə keçirilən türkoloji konfranslarda manasşünas alim kimi öz maraqlı məruzələrinizlə Azərbaycanı təmsil etmisiniz. Siz Ç.Aytmatov Akademiyasının fəxri akademiki seçilmiş, Respublika Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə", AJB-nin "H.B.Zərdabi", AYB-nin "Bəxtiyar Vahabzadə", mükafatları almış, TÜRKSOY-un "T.Satılqanov", "Nizami Gəncəvi", İssık-Göl Forumunun "Ç.Aytmatov" medalları ilə təltif edilmisiniz.

**Sizi 70 illik yubileyiniz münasibətilə təbrik edir, möhkəm can sağlığı və yeni yaradıcılıq uğurları diləyirik.**

**Azərbaycan Yazıçılar Birliyi**